# Leksik terminoloji təkrarların mətnyaratma imkanları

**Fatma Yusifli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** fat.isayeva2015@yandex.ru

**Rəyçilər:** filol.ü.f.d, dos. T.Ç. Şükürlü,
filol.ü.f.d.,dos. T.R. İsmayılova

**Açar sözlər:** mətn, termin, təkrar, leksik təkrar, mətnyaratma
**Ключевые слова:** текст, термин, повтор, лексическое повторение, текстура
**Key words:** text, term, repetition, lexical repetition, texture

Dil öz kommunikativ funksiyası baxımından yalnız fikirlərin ifadəsi üçün deyil, həmçinin hiss və arzuların ifadəsi üçündür. Dildə ekspressivlik müxtəlif üsul və vasitələrlə ifadə oluna bilər. Onlara əzizləyici formalar, müxtəlif tonlar, pauzalar, qoşa işlənən sinonimlər, antonim sözlər, təkrarlar və bir çox digər vasitələr aid edilə bilər. Mətnin ekspressivliyi anlayışı dilin leksik vasitələrinin ekspressivliyi anlayışından daha genişdir.

Ekspressivlik mətnin qlobal xassəsi, onun ümumi ifadəliliyi, leksik ekspressiv vasitələr isə mətnin ekspressivliyini formalaşdıran vasitələr sistemində elementlərdən biridir (2, 98). Mətnin ümumi ekspressivliyinin ən mühüm komponenti emotivlikdir.

Emosionallıq şəxsiyyətin, onun emosional sferasının vəziyyəti, keyfiyyətləri və səviyyəsinin psixoloji xarakteristikası, emotivlik isə mətnin emosional effekt yarada bilən, yəni resipientdə müvafiq emosiyalar oyada bilən dil vasitələrinin məcmusu kimi linqvistik xarakteristikasıdır (2, 19). Mətndə onları yaradan ən mühüm vasitələrdən biri də təkrarlardır. Dünyanın heç bir dilini təkrarlarsız təsəvvür etmək mümkün deyil. Təkrar xüsusi məna ifadə edən sözün – temanın ön plana çıxarılması ilə bağlıdır. O, həmçinin remanın məntiqi fərqləndirilməsinin effektiv və geniş yayılmış vasitəsidir. Yeninin təkrarlanması onu danışanın özünün dərk etməsinin və dinləyənin ən yaxşı şəkildə mənimsəməsinin ən təsirli üsullarından biridir (7, 38).

Y.M.Qalkina – Federok təkrarların çoxfunksiyalı olduğunu qeyd edərək, onların daha dəqiq desək, leksik təkrarların həm də ekspressivlik vasitəsi olduğunu vurğulayır (6, 25).

Mətnin həm məntiqi – psixoloji, həm də semantik – qrammatik cəhətdən formalaşmasında qrammatik vasitələrin yuxarıda qeyd olunmuş digər üsul və vasitələrin da rolu çox böyükdür. Lakin mətnin komponentləri arasındakı əlaqə vasitələrinin ən geniş yayılmış universal növü, qeyd etdiyimiz kimi, təkrardır (8, 56).

Leksik təkrar mətn yaradıcılığının çox güclü bir amilidir. K.Abdullayevin xüsusi olaraq vurğuladığı kimi özünün struktur mürəkkəbliyindən və ya sadəliyindən asılı olmayaraq təkrar prinsip etibarilə mətnin bütövlüyünə xidmət edən çox möhkəm sementvari bir üsul kimi üzə çıxır. Mətndə elə məqamlar olur ki, onun özünəməxsus düyünlü nöqtələrində məhz cümlənin təkrarı daha effektiv rol oynayır. Bu fikir bu və ya digər şəkildə başqa tədqiqatçıların əsərlərində də qeyd olunur. Mətnin yaranmasında təkrarlar mühüm rol oynayır. Təkrar olunan ünsür mətn komponentlərini elə qapayır ki, bunu ancaq dairə ilə müqayisə etmək olar.

Paralelizmin mətn daxilində qapalı bir konstruksiya olmasını göstərən Q.Bəyzadə təkrarlığı onun başlıca şərti hesab edir.

Mətnin formalaşmasında terminoloji təkrar kimi iştirak edən leksik vahidlər çox

müxtəlifdir. Azərbaycan dilçiliyində mətnyaradan vasitə kimi bütün cümlə üzvləri çıxış edə bilir. Mətnin formalaşmasında təkrarın hansı məqsədlə və hansı şəkildə işlənməsi ilə əlaqədar maraq doğuran bir sıra fikirlər mövcuddur. Ə.Abdullayevə görə, mətn mənanın açılması prosesində formalaşır və təkrar çox vaxt mətndə üslubi vasitə kimi qəbul edilsə də, onun kommunikativ gücünü artırmaq üçün yanaşı, sonrakı cümlədə, yaxud da ardıcıl olaraq işlənə bilər. Mətndə terminoloji səciyyə daşıyan leksik təkrarların işlənməsinə aid nümunələrə diqqət yetirək: Ələviyyə Babayeva "Adamlar və talelər" romanı –"*Leyla özünü bilməməzliyə vurdu:*

*İndi Mədə xorasının cərrahiyyəsi o qədər də çətin əməliyyat sayılmır. Ürəyiniz sağlamdır. Budur, baxın, — əlindəki kağızları vərəqlədi, axırıncı elektrokardioqrammanı çıxartdı, — belə ürəyə cavanlar da həsəd çəkə bilərlər.*

*-Mədə xorası.Mədə xorasının da üzünü görmüşük deyə, — Dəmirçi oğlu əlini yellədi,- məni elə avam bilməyin. Arıçı olanda nə olar!- onun ağıllı gözləri qıyıldı, sanki üzünə gözlənilmədən parlaq işıq saldılar...."* — Mətn üslubuna görə bədii mətnlər cərgəsinə aiddir. Mətn tez – tez tibb sahəsinə aid terminlərin təkrarına rast gəlirik. Mədə xorası – termini 3 dəfə mətndə təkrar olunmuş və fikrin daha ekspressiv çatdırılmasına xidmət edir. Mətndə ikinci dəfə işlənən — Mədə xorası – termini implisit mənada işlənmişdir. Bu ifadəni deyərkən obrazın keçmişdə bu xəstəliklə bağlı xatirələri beyində cəmlənir. Və bu ifadə böyük bir sintaktik bütövü əvəz edə bilər (10, 67).

K.Abdullayev qeyd edir ki, "mətnin quruluşunda özünü göstərən təkrarlıq hadisəsi struktur kompozisyon funksiya daçıyır. Bu, özünü onda göstərir ki, təkrar komponentlərlə çərçivələndikləri zaman əlaqəli cümlələr toplusu bitkin frazafövqü birliyə çevrilir. Tekst qapanır və onun tərkibini bitmiş hesab etmək olar. Əsas meyarımız məhz təkrarlığın ortaya çıxarılmasındadır. Təkrar mətnin sərhədlərini göstərən ən vacib sintaktik məqam kimi özünü göstərir."

Artıq qeyd edildiyi kimi, təkrar mətnin komponentlərinin əlaqəliliyi üçün əsas amillərdən biridir. Bu əlaqə vasitəsi iki hissədən ibarət olur: 1) təkrarlanan hissə 2) təkraredən hissə. Mətnin komponentlərinin əlaqəsi bu iki hissənin birləşməsilə yaranır.

Təkrarlar həm də mətnin mənasını qüvvətləndirmək üçün işlədilir. Onlar fikrin güclü və ya zəif şəkildə çatdırılmasına imkan yaradır. E.A.Referovskaya göstərir ki, qonşu cümlələrdə sözün təkrarı ilə cümləni bitirən sözün növbəti cümləni başladığı hallarda bəzən "zəncir" əlaqəsi yaradır. Bu zaman həmin söz, bir qayda olaraq birinci cümlədə rema rolunu oynayır və ya ən azı rema qrupuna daxil olur, ikinci cümlədə isə tema kimi çıxış edir. Belə rema – tema əvəzlənməsi öz-özlüyündə artıq frazafövqü vahidin daxilindəki cümlələrdə əlaqə yaratmağa xidmət göstərir.

Bizi zəncirvari əlaqənin bir növü – leksik təkrar vasitəsilə reallaşan zəncirvari əlaqə maraqlandırır. Zəncirvari əlaqənin ən geniş yayılmış növlərindən biri məhz leksik təkrarlar vasitəsilə reallaşan "mübtəda – mübtəda" əlaqəsidir. Nümunələrlə fikirlərimizi daha dəqiq ifadə edə bilərik.

*İslam Səfərli "Göz həkimi" pyesi:*

*N.Nikoloyevna. Professor, bu sözlərin yeri deyil, bir azdan operasiyaya girəcək bir cərrahı əsəbləşdirməyin.*

*Şahbazov. Xeyr, bərkə düşsə, bu əməliyyata mən özüm başlayacağam.*

*Nərminə. Çox gözəl olar. Biz buna yüz faiz razıyıq.*

*N.Nikoloyevna. Geoloq İvanovun cərrahiyyə əməliyyatında iştirak edəcək assisentlərə tapşırın hazırlaşsınlar.*

*Şahbazov. Mən bunun əleyhinəyəm.*
*N.Nikoloyevna. Bir azdan əməliyyat başlanmalıdır.*
*Şahbazov. Xəstə cərrahiyyə otağına gətirilibmi?*
*Gülər. Bəli, hər şey hazırdır.*
*Şahbazov. Mənə xalat verin, əməliyyatı özüm aparacağam.*
*Nərminə. Mənə də xalat verin. Mən də assisentiniz* olum (11, 43).

Mətnə diqqət yetirsək görərik ki, "cərrahiyyə" tibbi termini mətndə 3 dəfə, "əməliyyat" tibbi termini isə 4 dəfə təkrar edilmişdir. Leksik təkrarlar dedikdə buraya sözlər daxil edilir. Terminlər də söz qruplarına daxildir. Göstərilən mətndə tibb terminləri zəncirvari təkrar yaratmışdır. Sintaktik bütövdə "əməliyyat" termini müxtəlif hal kateqoriyalarında işlənərək mətni formalaşdırmışdır. "Əməliyyata" – termini hərəkətin, işin yönəldiyi obyekti ifadə etmişdir.

"Əməliyyatı" — termini işin icra olunduğu obyekti bildirir. "Əməliyyatda" – termini isə hərəkətin, işin icra yerini bildirərək mətni yaratmağa xidmət etmişlər. Eyni zamanda termin leksik təkrarları göstərilən sintaktik bütövü zəncirvari əlaqəylə qapamışdır. "Əməliyyat", "Operasiya", "cərrahiyyə" – terminləri mətnin əsas korpus sözləridir. Və bütün korpusda funksionallaşır. Bu terminlər mətndə təkrarlanaraq period yaratmışdır.

Eyni zamanda, mətndə "operasiya" terminoloji vahidi "əməliyyat" terminoloji vahidinin sinonimik təkrarı kimi işlənmişdir. Və mətndə keyfiyyəti aşağı salmamış, əksinə emosionallığın, ekspressivliyin bariz nümunəsi kimi qey edilə bilər. "Əməliyyat" və "Cərrahiyyə" terminləri mətndə emosiyaları, obrazların daxili aləmini, təfəkkürünü üzə çıxarır.

Mətn parçası "cərrahiyyə prosesi" haqqında məlumat verir, bu baxımdan yanaşdıqda mətn kommunikativ vahiddir.

Əməliyyat və cərrahiyyə sözləri terminoloji sistemdə də özünə yer tapmışdır. Bu sözlər mətndə süjet yaradan əsas amillərdir.

Əməliyyat və cərrahiyyə sözlərinin sistem mənalarına diqqət yetirək:

1. Cərrah. ism. – xəstələri yarmaq üsulu ilə müalicə edən həkim.

2. Cərrahiyyə. ism – Cərrahlıq. Cərrahiyyə kafedrası. Cərrahiyyə şöbəsi. Cərrahiyyə əməliyyatı.

1. Əməliyyat. is. – 1. Müəyyən bir məqsəd güdən və bir-biri ilə əlaqəli olan işlər.

2. Tibb. Bəzi xəstəliklər, yaxud yaralanmalar zamanı müalicə məqsədilə bədənin hər hansı bir yerində icra edilən cərrahlıq işi. Cərrahlıq əməliyyatı. Plastik əməliyyat.

3. Müharibədə bir tapşırığı, məqsədi yerinə yetirmək üçün aparılan döyüş işləri. Hərbi əməliyyat. Hücum əməliyyatı. Müharibə əməliyyatı.

4. Maliyyə, ticarət idarəsinin gördüyü işlərin məcmusu.

Leksik təkrarların bu növlərindən hər biri həm ikikompenentli, həm də çoxkomponentli MSB-lər daxilində, həm ayrıca söz, həm söz birləşməsi, həm də cümlə şəklində özünü göstərə bilir. Leksik təkrarlara daha dərindən nüfuz etmək üçün ilk növbədə onları xarakterizə edən diferensial əlamətləri müəyyən etmək lazımdır.

Azərbaycan dilində mətnin başlanğıc mərhələsi onun sonrakı mərhələlərində formal baxımdan tam və ya natamam şəkildə təkrarlana bilir. Mətnin əvvəlki cümləsindəki hər hansı üzvün sonrakı cümlələrdə təkrar olunması çox geniş yayılmış bir əlaqə vasitəsidir.

**Məqalənin aktuallığı.** İlk dəfə olaraq Azərbaycan bədii mətnləri əsasında leksik terminoloji təkrarların mətnyaratma imkanları öyrənilmişdir. Həmin leksik terminoloji vahidlərin semantikasına toxunulmuş. Məqalənin aktuallığını bu və ya digər amillər şərtləndirir.

**Məqalənin elmi yeniliyi.** İlk dəfə olaraq leksik terminoloji təkrarların mətnyaratmada rolu öyrənilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədris tətbiq olunma ölçüləri ilə reallaşır. Tələbələr və magistrantlar bu məqsədlə həmin məqalədən istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abdullayev K. Mətn dilçiliyi. Müasir Azərbaycan dilində ixtisas kurslarının proqramı. Bakı: ADU-nun nəşri, 1982.
2. Abdullayev Ə. Aktual üzvlənmənin mətnyaratma imkanları. Bakı, 1996.
3. Abdullayev K.Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif, 2016.
4. Abdullayev K, Məmmədov A, Musayev M. və b. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər. Bakı: Mütərcim, 2012.
5. Adilov A. Azərbaycan dilində sintaktik təkrarlar. Bakı, 1974.
6. Adilov M. Azərbaycan dilində təkrarlar sistemi. Bakı, 1967.
7. Bəyzadə Q.M. Mətn dilçiliyi. Bakı: Qorqud, 1997.
8. Bəyzadə Q.M. Mətn sintaksisinin problemlərinə bir nəzər (mülahizələr, isbatlar, sübutlar). I cild. Bakı, 1999.
9. Babanlı V. Vicdan susanda (roman). Bakı: Çinar-Çap, 2008.
10. Əbülhəsən. Seçilmiş əsərləri. Dünya qopur (roman). Bakı: Azərnəşr, 1984.
11. Ələviyyə B. Adamlar və talelər (roman). Bakı: Gənclik, 1979.
12. İslam. S. Göz həkimi (pyeslər). Bakı: Yazıçı, 1980.

**Ф. Юсифли**

## Текстосоздаваемые возможности лексических терминологических повторений

## Резюме

В статье рассматривается используемых средств в формировании текстов, лексических терминологических повторений и их роль в текстов. Повторения являются лексическим потенциальным инструментом в текстосоздании.

**F. Yusifli**

## The opportiny of lexical-terminal repertions in creating texts

## Summary

In this article is told about lexical-terminal repetitions, their role in formation of texts. Repetition is the main potential means of creating texts.

**Redaksiyaya daxil olub:** 06.05.2019